**Azərbaycan ədəbiyyatının klassikləri və müasirləri birmənalı şəkildə etiraf etmişlər ki, Mikayıl Müşfiq şeir-sənət aləminə ötəri həvəslə yox, yenilikçi və əsl şair kimi gəlmiş, XX əsr Azərbaycan poeziyasının təməl daşını qoyanlardan olmuşdur. O, hər yeni əsəri ilə oxucuları sevindirmiş, istedadlı şair kimi tanınmışdır.**
**Bütün yaradıcılığını, həyatını şeirə-sənətə, doğma vətəninin tərəqqisinə və inkişafına həsr etmiş Müşfiqin ibtidai təhsil aldığı illər milli münasibətlərin kəskinləşdiyi, erməni-müsəlman qarşıdurmalarının və münaqişələrin gücləndiyi, ingilis, rus və erməni silahlarının Azərbaycanın müstəqilliyinə tuşlandığı vaxtlara, millətin azadlıq və müstəqillik arzusu ilə canından-qanından keçdiyi ağrılı-acılı günlərə, təhsilinin son iki ili isə Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasına və süqutuna təsadüf edir.**



# Müşfiq XX əsr Azərbaycan poeziyasının təməl daşını qoyanlardan olmuşdur

Sovetləşmə dövründə Mikayıl İsmayılzadə (Mikayıl Müşfiq) Bakı Darülmüəllimində və 12 saylı II dərəcəli məktəbdə oxumuşdur. O, ilk şeirlərini məktəbli ikən yazmış, divar qəzetində çap etdirmişdir. Şeirləri təmiz Azərbaycan türkcəsinin axarı-buxarı ilə seçilirdi. Mikayıl Müşfiq imzası ilə böyük ədəbiyyata, dövri mətbuata 1926-cı ildə "Gənc işçi" qəzetinin 28 aprel nömrəsində dərc olunan "Bir gün" adlı şeiri ilə qədəm qoymuşdur.

Fitri istedada malik gənc şeir yazmaqla yanaşı, mütaliə edir, təhsilini və savadını artırmağa səy göstərirdi. Ona görə də 1927-1928-ci tədris ilində Azərbaycan Dövlət Darülfünununun dil və ədəbiyyat fakültəsinə daxil olmuş, bu elm məbədini uğurla bitirmişdir. Əmək fəaliyyətinə pedaqoq kimi başlayan şair Bakının orta məktəblərində yeddi il müəllimlik etmişdir. Son iş yeri hazırda onun adını daşıyan Yasamal rayonundakı 18 saylı orta məktəb olmuşdur.

Müşfiq 1931-ci ildə Bakı Pedaqoji Texnikumunun tələbəsi Dilbərlə tanış olmuş, 1933-cü ildə ailə qurmuşdur.

## Onun şeirlərində işıqlı gələcəyə inam motivləri daha çox idi

Mikayıl Müşfiq 1918-ci ildə qurulan müstəqilliyimizin şahidi olub. 1920-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti XI rus ordusu tərəfindən süquta uğradılanda - ölkəmiz yenidən müstəmləkə boyunduruğuna sürüklənəndə Müşfiqin 12 yaşı var idi. Dəhşətli çaxnaşmalar onun şair qəlbini narahat edirdi.

*Vətən getdi əldən, dil getdi əldən,*
*Hər yetən dəm vurur beynəlmiləldən.*

- deyə bütün dünyanı işğalçı "beynəlmiləlçilik"lə tanış edən şair məslək etibarilə milli duyğulu Üzeyir bəy Hacıbəyli, Hüseyn Cavid, Əhməd Cavad, Almas İldırım, Cəfər Cabbarlı, Məhəmməd Hadi, Abbas Səhhət, Abdulla Şaiq, Salman Mümtaz, Vəli Xuluflu, Əhməd Ağaoğlu, Firudin bəy Köçərli və dövrün bu kimi ziyalılarının istək və ideyalarına dəstək olurdu.

Müşfiq Azərbaycan poeziyasında xalq ruhunun qaynaqlarından, şifahi ədəbiyyatın ölməz ənənələrindən, eləcə də Şərq, xüsusən türk poeziyasının zəngin xəzinəsindən öyrənə-öyrənə boy atmışdı.

*Mən gəncəm, bilirəm istiqbalım var,*
*Hələ bədr olmamış bir hilalım var.*
*Yelkənim açılır, qara yel, əsmə,*
*Mənim bu dünyada bir sandalım var.*

Gənclik ehtirası ilə yazıb-yaradan Müşfiq bu ruhlu şeirləri ilə sabaha, işıqlı gələcəyə inam motivlərinin ilk qaranquşuna çevrilirdi. Təsadüfi deyil ki, sonralar onun güllələnməsinə "səbəb" olan "əsas amillər"dən biri də guya Türkiyənin bayrağına işarə kimi bu "bədr olmamış hilal" oldu. Bu gün ziyalılarımızın - alim, şair, tarixçi, ən çox da incəsənət və iş adamlarının qarşılıqlı surətdə bir-birinin evinin, süfrəsinin, məclisinin yuxarı başında əyləşdikləri, "Bir millət, iki dövlət" olaraq qol-boyun olduğumuz bir vaxtda Müşfiqin "o bədr olmamış hilal"ı on dörd gecəlik aya dönüb qaranlıq gecəmizi işıqlandırır. On şeir kitabının müəllifi olan Mikayıl Müşfiq nəinki istedadlı şair, xeyirxah insan və istedadlı tərcüməçi idi. Onun poetik istedadı Ömər Xəyyam, Puşkin, Lermontov, Şevçenko yaradıcılığının bütün gözəlliyini Azərbaycan oxucusuna çatdırmışdır.

Şairin dillər əzbəri olan "Yenə o bağ olaydı", "Oxu, tar", "Maralım", "Yaşa, könül", "Sənə qurban", "Küləklər" kimi sevgi dolu lirik şeirləri ilə yanaşı, bolşevik ab-havasını tərənnüm edən "28 aprel", "Zəfər səsləri", "Əmək", "İrəli" kimi şeirləri də olub. Müşfiq Oktyabr inqilabının qələbəsindən başlayaraq yarımçıq ömrünün axırına kimi həmin quruluşa inanıb, həmin inamdan doğan duyğularını nəzmə çəkib. O, Azərbaycan ədəbiyyatının yeni məndəricəli sosialist poeziyasını yaradanlardan biri olub.

## Şairi ölüm girdabına sürükləyənlər kimlər idi

O qanlı-qadalı illərdə, haqsızlığın ayaq açıb yeridiyi, haqqın qoluna qandal vurulduğu bir dövrdə Müşfiqi müsavatçı, pantürkist, yeni quruluşu bəyənməyən şair kimi qələmə verənlərin sayı getdikcə artırdı. Yeni quruluşun mahiyyətindən gələn bu ənənə cəmiyyətin bütün zümrələrini başına götürmüşdü. Azərbaycan Şura Yazıçıları Cəmiyyətində də vəziyyət eyni idi. Hansı yığıncaq olsa, hansı bolşevik mətbuatı olsa, Hüseyn Caviddən, Əhməd Cavaddan, Hacı Kərim Sanılıdan başlayıb Müşfiqdə qurtarırdılar. Bir dəfə Azərbaycan şura yazıçılarının yığıncağında adı və imzası heç kimə bəlli olmayan firqəçi şairciklərdən biri Müşfiqin şeirlərinin vətənə və xalqa gərəksizliyindən bəhs etdi, onu qatı müsavatçı və yeni quruluşun düşməni adlandırdı. Böyük Hüseyn Cavid, Əhməd Cavad, Salman Mümtaz, Hacı Kərim Sanılı ilə yanbayan oturan Müşfiq tələsik bloknotundan bir vərəq cırıb dizinin üstündə dərhal nəsə yazıb tribunadan düşüb arxa cərgədə yerində oturmağa gedən şairciyə uzatdı. "Natiq"in öyünə-öyünə yanındakıların müşayiəti ilə açdığı həmin vərəqdə yazılmışdı:

*Şairə ilhamdan maya gərəkdir,*
*Anasız cocuğa dayə gərəkdir!*
*Şairəm söyləyir yerindən duran,*
*Adamın üzündə həya gərəkdir!*

Müşfiq 1937-ci ilin yay ayında, anadan olduğu gün səhər saat 9-da Azərbaycan Baş Siyasi İdarəsinin əməkdaşları tərəfindən həbs edilmişdir. O, həbsxana zirzəmisində saxlanılandan az sonra repressiya maşını böyük qardaşı - 32 yaşlı Mirzənin, bacıları - 30 yaşlı Böyükxanımın və 29 yaşlı Balacaxanımın, 16 yaşlı əmisi oğlu Yunis Dağlının həyatını, ailəsini məhv etdi. Mirzə Astarada hesabdar işləyirdi. Onu oradan necə götürdülərsə, nə öldüsü, nə də qaldısı barədə indiyəcən məlumat yoxdur. Yunis təzə yazmağa başlayan həvəskar şair idi. On bir il şaxtalı Sibir çöllərində sürgün həyatı keçirib qayıtdı. O vaxt Müşfiqin bacısı - 30 yaşlı Böyükxanım bibisi oğlu Zeynalabdinin həyat yoldaşı idi. Zeynalabdin işdə olarkən "Emadin" markalı qara maşın Böyükxanımı həbs etmək üçün həyətə gəlir. Meşin gödəkcəli NKVD-çilər evdə axtarış aparırlar. Şəkilləri, kitabları götürürlər. Böyükxanım paltar dəyişmək bəhanəsilə yan otağa keçir, orada olan dolu neft qabını son damlasına kimi üstünə tökür, sonra həyətə çıxır və uca səslə "Müşfiqə canım fəda olsun" deyib özünü yandırır. Bundan şoka düşən meşin gödəkçəlilər alovu söndürməyə çalışsalar da, gec olur.

Mikayıl Müşfiqlə əlaqədar 1938-ci il yanvarın 4-də saat 10.20-də başlayan məhkəmə iclası 10.40-da bağlı elan edilir. Cəmi 20 dəqiqə davam edən məhkəmə iclasında İsmayılzadə Mikayıl (Müşfiq) Əbdülqədir oğlunun burjua-millətçi ideyalarla yaşadığı, müsavatçılarla əlaqəsi, ən nəhayət, 1935-ci ildən sovet hökumətinin əleyhinə işləyən üsyançı-terrorçu təşkilatın üzvü olduğu "müəyyən" edilir. SSRİ Ali Məhkəməsinin Hərbi Kollegiyası Mikayıl Müşfiqi ən ağır cəzaya - bütün əmlakı müsadirə edilməklə güllələnməyə məhkum edir. Böyük şair xüsusi təhlükəli düşmən kimi bir gün sonra - yanvarın 6-da sübh tezdən güllələnir.

Mikayıl Müşfiqin işıqlı ömrünə 29 yaşında son qoyulmuşdur. Ədəbiyyatşünaslar birmənalı şəkildə təsdiqləyirlər ki, on bir illik yaradıcılıq fəaliyyəti dövründə, xüsusilə 1920-1930-cu illərdə Azərbaycan şeirinin istər məzmun, istər sənətkarlıq, istərsə də bədii ustalıq cəhətdən qüvvətlənməsində Mikayıl Müşfiqin böyük rolu olmuşdur. Faciəli illər, Stalinin cəza tədbirləri bu istedadın həyatını çox tez söndürmüşdür. Lakin qısa yaradıcılıq dövründə şair elə əsərlər yarada bilmişdir ki, bunlar onun adını əbədiləşdirmiş və Azərbaycan ədəbiyyatının "qızıl fondu"na daxil etmişdir.

*Rəhman SALMANLI,*
*"Azərbaycan"*

Azərbaycan. - 2023.-10 iyun.- S.11.